# QARABAĞ SƏDASI

**Qaratel İsmayılova**
*Bakı Dövlət Universiteti (bakalavr)*

*Məqalədə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağdan, son dövrlərin ən mühüm hadisəsi-Qarabağ müharibəsindən, şanlı ordumuzun qızıl həriflərlə tarix yazmasından və digər dövlətlərin bu müharibəyə münasibətindən bəhs olunur.*

***Açar sözlər:** Azərbaycan, Ermənistan, Dağlıq Qarabağ, İlham Əliyev, Nikol Paşinyan, Türkiyə, Rəcəb Tayyib Ərdoğan, BMT, ATƏT, TRT, Əl-Cəzirə, Fransa24.*

***Garatel Ismailova,***
*bachelor,  Baku State University*

# KARABAKH VOICE

*This is article about Nagorno-Karabakh inseperable part of Azerbaijan, Karabakh war that is the most important event of the recent times, the golden history which is written by our victorious army and the attitude of other countries to this war.*

***Key words:**  Azerbaijan, Armenia, Nagorno-Karabakh, Ilham Aliyev, Nikol Pashinyan, Turkey, Recep Tayyip Erdogan, UN, OSCE, TRT, AL- Jazeera, France 24*

***Гаратель Исмаилова,***
*бакалавр, Бакинский Государственной Университет*

# КАРАбАХСКОЕ ЭХО

*В статье золотыми буквами освещается Нагорно-Карабахская война, неотъемлемая часть Азербайджана, важнейшее событие последнего времени, история нашей славной армии и отношение других стран к этой войне.*

***Ключевые слова:** Азербайджан, Армения, Нагорный Карабах, Ильхам Алиев, Никол Пашинян, Турция, Реджеп Тайип Эрдоган, ООН, ОБСЕ, ТРТ, Аль-Джазира, Франция 24.*

**Mən aşiqəm Qarabağ,**
**Qara salxım, qara bağ.**
**Tehran cənnətə dönsə,**
**Yaddan çıxmaz Qarabağ.**

Qarabağ torpağı Azərbaycan mədəniyyətinin ilk və ulu beşiklərindən biri. Qarabağım-sevimli Üzeyirimizin qədəm açıb yeridiyi torpaq, yurdumuzun dilbər guşəsi.

Bu ərazi Natəvanın, Vaqifin, Zakirin, Bülbülün, Xan Şuşinskinin, Qaryadıoğlunun vətənidir. Qarabağ aranlı-dağlı bir diyardır. Günçıxandan-günbatana, düzəngahlardan dağlara doğru gedəndə uzun müddət üfüqlərin düzlüyü adamı heyrətə salır. Bu düzlüyü kəndlərin, qocaman qovaqların yollar boyu uzanan sıraları pozur. Qarabağın bütün yolları adamı Şuşaya, Cıdır düzünə, İsa bulağına… aparır. Qarabağsız biz əlsiz, ayaqsız, kor bir insan kimi idik. Yaşamaq, yaratmaq istəyiriksə, Qarabağı işğaldan qurtarmalıydıq. Bəzən düşünürdüm ki, Qarabağ yenidən bizim olsa nə olar? Həmin saniyə elə cavabını tapırdım. Nələr olmaz ki?... Sanki həyatımız isıqlanar, aldığımız hər bir nəfəs bizə necə xoş, gözəl olar. Xəyalı belə xoşdur Qarabağımızın. Nə etmək olar? Demək qismət bu imiş. Qarabağımızın başına gəlməliymiş bu dərd, bu fəlakət, çəkməliymiş bu həsrəti, dadmalıymış bu qəmi, kədəri… Nə gözəl demişdir Ümummilli liderimiz:"Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".

XX əsrin sonlarında da doğma yurdumuzun başından bir daha acı küləklər əsdi. İllər boyu bizə sığınan nankör ermənilər rus hərbi maşınına arxalanaraq qışqırdılmış itlər kimi Azərbaycanı sınağa çəkdi. Belə bir vaxtda yenə də yurdumuzun igid oğulları onun köməyinə gəldi. Bu savaş Azərbaycana neçə-neçə qəhrəman bəxş etdi və tarix sübut etdi ki, qəhrəman Azərbaycan oğulları həmişə Vətənə sadiqdirlər və onun yolunda canlarını qurban verməyə hazırdılar.

Azərbaycan xalqı zaman-zaman yadelli işğalçıların haqsız hücumlarına məruz qalmışdır. Bu hücumlar zamanı başı müsibətlər çəkən xalqın min bir zəhmətlə qazandığı var-dövlət əlindən alınmış, özü təhqir edilmiş, öldürülmüş yurd-yuvalarından didərgin salınmışdır. Bütün bunlarla yanaşı, ölkəmizin ərazisi zəbt edilmiş, torpaqlarımız uzun müddət düşmən tapdağında qalmiş, milyonlarla soydaşımız zorla dədə-baba torpaqlarından qovulmuş, evsiz-eşiksiz qalmışdır. Bu

anda yadıma bir neçə gün bundan əvvəl televizorda gördüyüm bir hadisə düşür." Mənfur düşmənin Xocalıya hücumu zamanı qaçqın düşən bir şəxs Xocalıdan çıxarkən bir qab torpaq və bir qab su özü ilə götürür. Həmin hadisədən 28 il ötür. Hər dəfə Xocalı həsrətini hiss etdiyi zaman torpağın qoxusunu içinə çəkir. Onun ən böyük arzusu həmin torpağı aparıb yenidən Xocalı torpağına qatmaqdır". Tək o şəxs deyil, yüzlərlə, minlərlə insan neçə illər idi ki, Qarabağın havasına, suyuna, torpağına həsrət qalmışdır. Ancaq artıq bu da danılmaz faktdır ki, ən qısa zamanda biz Qarabağımıza geri qayıdırıq. Həmin şad günü həsrətlə gözləyən, qələbə sevincini yaşamaq istəyən arzularımız gerçəkləşir, bütövlükdə Qarabağ həsrətimizə son qoyulur.

İndi isə Azərbaycanın cənnət diyarı, taxt-tacı olan Qarabağa səyahət edək.




Tarix yaddaşsızları cəzalandırır. Azərbaycan xalqı zaman-zaman unutqanlığı ucbatından bir çox müsibətlərə məruz qalmışdır. Respublika Prezidenti cənab İlham Əliyev Milli Məclisin 2006-cı il payız sessiyasının açılışında demişdir:"Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib istəyinə nail olacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olacaqdır. Mən buna şübhə etmirəm". Yaxud cənab Prezidentimizin digər bir sitatına nəzər salsaq "İşğal olunmuş Azərbaycan

torpaqları haqqında söhbət gedəndə Ermənistan hökuməti bilməlidir ki, heç bir güzəştə yol verilməyəcək" demişdir.

***27 Sentyabr 2020-ci il… Şanlı ordumuzun qızıl hərflərlə tarix yazmağa başladığı həmin gün… Nəhayət 28 illik həsrətin sona vardığı gün…***

2020-ci il 27 sentyabr tarixində erməni ordusunun yenidən atəşkəsi pozması nəticəsində Dağlıq Qarabağ müharibəsinin yeni və Azərbaycan üçün parlaq mərhələsi başlanır. Həmin gün Ali Baş Komandanımızın "İrəli" əmri vətən həsrəti ilə yanıb-yaxılan qəlblərə su səpdi. Ermənistan dövləti qarşısında zəif, gücsüz Azərbaycan ordusu gözləyirdi və hətta yeni ərazi iddialarıda var idi. Ancaq mən burdan ermənilərə Türkiyənin Cumhur Başkanı Rəcəb Tayyib Ərdoğanın bir ifadəsi ilə səslənmək istəyirəm:"Ermeni vahşeti  şunu unutmayın aslanlar meydana çıkınca çakkalların payına kaçmak düşər". Beləliklə, onların bütün arzu və istəkləri sözün əsl mənasında puç oldu. Çünki bu dəfə onlar artıq bu məsələnin sülh yolu ilə həll edilməyəcəyini bilən, 28 illik həsrətlə yanıb-yaxılan, şucaətli Azərbaycan ordusu ilə qarşılaşdılar. Bu ifadəni heç vaxt unutmayacağam. Bir erməni əsgəri öz müsahibəsində deyirdi:" Azərbaycan əsgəri Şuşanın ətrafındakı qayalara dırmaşırlar. Dəhşətdir, güllə dəyir yıxılırlar təzədən durub qanı axa-axa üstümüzə gəlirlər". Bəli, dəhşətdir. Siz bu dəhşətlərdən hələ çox görəcəksiniz. Çünki biz bir ölüb, min dirilən millətik. Çünki biz Türkük. Təbii ki, Azərbaycan erməni xislətindən fərqli olaraq yenə də sülh tərəfdarı idi. Ancaq İlham Əliyevin dediyi kimi:" Ermənistan qeyri-şərtsiz Azərbaycan torpağından çıxmalı və elə həmin gün biz dayanmağa hazır idik". Azərbaycan ordusu qarşısında aciz qalan Ermənistan rəhbəri Nikol Paşinyan atəşkəsin elan edilməsi üçün Rusiya, Fransa, ABŞ kimi dövlətlərə müraciət edirdi. Bir çox ölkə və Birləşmiş Millətlər Təşkilatı münaqişəni kəskin şəkildə qınayaraq hər iki tərəfi gərginliyi azaltmağa və mənalı danışıqları təxirə salmadan davam etdirməyə çağırmışdır[1] Çox maraqlıdır ki, bizi sülhə çağıran dövlətlər tarix boyu bizə qarşı baş verən haqsızlıqlara necə göz yuma bilirdi. Hansını deyim– 1918-ci il Mart soyqrımınımı, 20 Yanvarımı, Xocalınımı, yoxsa bir müddət bundan əvvəl baş verən Gəncə və Bərdə terrorunumu.

Təsəvvür edin ki, səhər üçün planlar qurub yatırsınız və bir anda ağlınıza belə gəlməyəcək bir hadisə baş verir. **Erməni terroru:** Həyatınız tamamən dəyişir sanki sənə canından əziz olan doğmaların, böyüb boya-başa çatdığın yurdun olmadan yeni bir həyata başla deyirlər. Bunu hansı uşağa anlada bilərsən? Yaxud hansı ata-anaya

min bir əziyyətlə böyütdüyün, hər bir uğrundan qol-qanad açıb gələcəyi üçün xəyallar qurduğun övladını öz əllərinlə al torpağa tapşır deyə bilərsən?
Ağlasığmaz dediyimiz mənim xalqımın başına gəldi. Gəncəmin, Bərdəmin başına gəldi.Bu terror nəticəsində neçə-neçə insanların, məsum körpələrin arzuları, xəyalları, həyatı… yarım qaldı. Onların gözlərindən axan hər damla yaş xəncər kimi qəlbimizə saplandı. Hər dəfəsində acımızı daha çox bəşəriyyətə çatdırmağa çalışdıq. Amma nə fayda. Belə nəticəyə gəlmək olar ki, Dünya nə kardır, nə də kor. Sadəcə olaraq DÜNYA ƏDALƏTSİZDIR!!! Dünya ədalətsiz ola bilər, ancaq Tanrım ədalətlilərin ən ədalətlisidir. Ağlamayın bacılarım, qardaşlarım. Türk oğlu sizin qisasınızı döyüş meydanında aldı.

Bu gün o gündür. Mübarizimin, Poladımın, minlərlə şəhidimin qisasının alındığı gün. Azərbaycan xalqının şərəf və namus günü. Bu gün Azərbaycan xalqının bir daha qəhrəman bir millət olduğunu bütün dünyaya elan etdiyi bir gündür. Bu gün bu şanlı tarixi Azərbaycan tarixinə şəhidlərimizin qanı ilə yazıldığı qələbə günüdür. Gözün aydın AZƏRBAYCAN!

Artıq təqvimdə elə bir tarix var ki, xalqımın əsla unutmayacağı tarix.

**8 Noyabr…** Şuşadan gəlirdi bu səs. Azad torpağın səmasında sevincdən pərvaz edən quşlarda nazlanır. Ağaclar da, qayalar da, dağ, dərə, düz, təpə bir-biri ilə qoşalaşıb fərəhlənir. İntizardan gözü ağlayan, 28 ildi sükuta qərq edilən İsa bulağı dilə gəlib danışır. Cıdır düzü nərə çəkir, yağıların əlindən bezdim, usandım. Haydı ər oğullarımız atlanın meydana, şahə qalxsın Qarabağımın atları. Haydı igidlərim göstərin şucaətinizi, yenə səs salsın sorağınız dünyaya. Qubadlı köksüm qürurdan alovlansın. Mən axı dillərə dastan olan Cıdır düzüyəm. Şuşadan gəlir bu səs.
28 ildi boynu bükük qalan xarıbülbül qəddini düzəldib talesiz dünənini pıçıldayır. Xiffətdən saralıb solan ləçəklərim sizi görüb dirildi, boy atdım, bir anda çiçəkləndim, ətirləndim söyləyir. Məğrur-məğrur boylanan, neçə-neçə tarixləri yaddaşında yaşadan Şuşa qalası. Bax biz gəldik. Qarşıla Odlar ölkəsinin aslantək cəngavərlərini. Qarşıla torpaq adlı əmanətin xilaskarlarını. Bayram olsun, tonqallar qalansın qərib Oğuz elində. Şuşadan gəlir bu səs. Bülbülün avazıdır. Sədası yeri-göyü bürüyüb sanki nigaran ruhlarda məzarından boylanıb sağ ol deyir ərənlərə. Azadlığın nəfəsini ciyərinə çəkir yamaclar da, meşələr də. El-obanın bu başından o başına əl-ələ tutub yallı gedək. Qoy ucalsın səmaya bu toy-büsat havası, Qarabağın sədası. Haray vuraq, cəngi gedək, havalansın xanın səsi, Qarabağın şikəstəsi

Nəhayət unudulmayacaq **10 Noyabr…** Vətənimin zəfər günü. Artıq 28 illik həsrətə son qoyuldu. 28 illik ağrı, acı, nisgili yola salıb, sevincə qucaq açdıq. Sevincimiz daim olsun. Müstəqilliyimiz əbədidir və sarsılmazdır. Yaralarını qanımızla sağaltdıq, Qarabağ, xoş gəldin.

28 il susduq,amma bu bizim zəifliyimizi göstərmirdi. Sadəcə biz doğru zamanı gözləyirdik. Artıq dünya dövlətləri qarşısında səsimizi ucaldaraq deyə bilərik:"Eşidin, dünya dövlətləri, Türkün dövrü gəlir".

İndi də bizə bu tarixi günü yaşadan qəhrəmanlarımızı tanıyaq. Tarix yazan qəhrəmanlarımız…"Torpaq uğrunda ölən varsa Vətəndir"–deyirlər. Şəhidlər xiyabanında uyuyan igidlərimiz– ölümü ilə ölümsüzlüyə qovuşanlar bu deyimi daha parlaq şəkildə sübuta yetirdilər. Vətən anadır və bu ananın xoş günü naminə canını qurban verənlər ən xoşbəxt insanlardır. Qəhrəmanlıqdan danışarkən yadıma böyük tatar şairi Musa Cəlilin aşağıdakı sözləri düşür:" Mən ölümdən qorxmuram. Bu boş söz deyil, bir həqiqətdir. Əgər mən sağlığımda faydalı bir iş görmüşəmsə, əgər bu haqqı qazanmışamsa, nə üçün ölümdən qorxum. Həyatın əsl mənası budur: Elə yaşa ki, öləndən sonra da ölmə. Əgər Vətən üçün ölmək lazımdırsa, qoy belə şərəfli ölüm mənim nəsibim olsun". Şəhidlər bizim həm nisgilimiz, kədərimiz,ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz və örnəyimizdir.

**Vətən torpağının ucalığında,**
**Millətin qəlbində qaldı şəhidlər!**
**Ölümün gözünə dik baxa-baxa,**
**Ölümə qələbə çaldı şəhidlər.**

Bu müharibə bizə dostumuzu da tanıtdı, düşmənimizi də. Müharibənin ilk günündən Türkiyə, Pakistan, Əfqanıstan, Ukrayna və Şimali Türk Respublikası Azərbaycana dəstək olduqlarını bildirdilər.[2],[3],[4],[5]. Bunların içərisində qardaş Türkiyənin adı xüsusilə vurğulanmalıdır. Türkiyənin mənəvi və siyasi dəstəyi bizə güc verdi. Bu dəstək növbəti qardaşlıq nümunəsi idi. Prezidentimizin "Bu bizim müştərək qələbəmizdir. Türkiyə-Azərbaycan birliyinin təsdiqidir"deməsi ilə "Bir millət, iki dövlət" ifadəsi bir daha öz təsdiqini tapdı və bu ad altında biz bundan sonrada bir yolla yürüyəcəyik.

Son sözlərimi isə bir Qarabağ qazisinin qızı olaraq yekunlaşdıracam. **QARABAĞ…** Mülki şəhid verən Naftalandı Qarabağ! Hər səhərini Qarabağ adı ilə qarşılayıb gecələrini diri gözlü açan Bakıdı Qarabağ! İndi bildim ki, hər kəs

Qarabağlıdır. Yaralı əsgərini güllə-borandan çıxaranda şəhid olan Turqutdu Qarabağ! Bayraqlarımız sancıldıqca azan verən Namiqdi Qarabağ! Döyüş yoldaşlarını qorumaq üçün erməni zabitlərini əli yalın boğan Cəbrayıldı Qarabağ! İndi bildim ki, şəhidlərlə tükənmir, bütövləşir bu millət. Çünki Qarabağ candır, hər qarşı uğrunda şəhid verən igidlərin canı. İndi bildim ki, tək ön cəbhə deyil, arxa cəbhədir Qarabağ! Növbələrə düzülüb əsgərlərimə qan göndərən minlərdir Qarabağ! Son qəpiyini əsgərinə pay eliyən Hikmət babadı Qarabağ! Bayraq tikən Laçın nənədi Qarabağ! Qarabağ tək torpaq deyil, meşə deyil, dağ deyil. Qarabağ namusdur, qeyrətdir, üz ağdır. Qarabağ narahat ruhların doğma məkanı. Üzeyirdir, Natəvandır, Bülbüldür Qarabağ! Poladdır, Raqufdur, Mübarizdir Qarabağ! İndi üzümü məğribə və məşiqə tutub rahat ürəklə deyirəm:" Eheeeyy, eşidirsən dünya, QARABAĞ AZƏRBAYCANDIR!!! Başını dik tut, Vətən. Eşidirsən QARABAĞ AZƏRBAYCANDIR!!! AZƏRBAYCANDIR QARABAĞ!!!"

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. Qarabağ müharibəsi-wikipediya[1]
2. "Əfqanıstandan Azərbaycana növbəti dəstək" yenisabah.az 6 oktyabr 2020
3. "Türkiyədən Azərbaycana dəstək davam edir" modern.az 2 oktyabr 2020
4. "Ukraynadan Azərbaycana tam dəstək" azərbaycan 24.com 30 sentyabr 2020
5. "KKTC'den Azərbaycana destek haberi- Son Dakika Haberleri" ulusal.com.tr 5 oktyabr 2020